**«Face-Visit»in nüvbəti qonağı Osman Gündüzdür**

«Face-visit» Vergilər Nazirliyinin «Facebook»dakı rəsmi səhifəsində istifadəçilərin marağını təmin etmək üçün hazırlanmış yeni layihəsidir. İctimai xadimlər, iş adamları, Azərbaycan cəmiyyətində nüfuz sahibi olan şəxslərlə səmimi söhbət əsasında qurulan müsahibələrdə tanınmış simalar həm də vergi qanunvericiliyinə aid konkret məsələlərlə bağlı fikirlərini söyləyir, vergi ödəyicisi olaraq ölkədə aparılan müəyyən vergi islahatlarına şəxsi yanaşmalarını bölüşürlər. Bu günədək «Face-visit»in qonaqları sırasında xalq yazıçısı Çingiz Abdullayev, bəstəkar Eldar Mansurov, telejurnalist Etibar Babayev, məşhur şahmatçı və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva, millət vəkili Zahid Oruc, müğənni Nura Suri, «GoldenPay» şirkətinin təsisçisi Fərid İsmayılzadə ilə proqramlar hazırlanmış və istifadəçilərin müzakirəsinə təqdim olunmuşdur.

«Face-Visit»in növbəti qonağı «Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzininin direktoru Osman Gündüzdür. Osman Gündüz, eləcə də «Face-Vizit»in digər qonaqları ilə müsahibələr Vergilər Nazirliyinin «Facebook» sosial şəbəkəsindəki rəsmi səhifəsində yerləşdirilmişdir. Buraya həm birbaşa ünvan (facebook.com/vergiler), həm də Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin (www.taxes.gov.az) üst panelindəki xüsusi «Facebook» keçidi vasitəsilə daxil olmaq mümkündür.